

# Cahana sığmayan dahi





Altı əsrdən çoxdur böyük şair, mütəfəkkir İmadəddin Nəsiminin (1369-1417) adı nəinki Azərbaycanda, eləcə də əsərlərinin yayıldığı Yaxın Şərq, Mərkəzi Asiya ölkələrində, qardaş Anadolu elində müdriklik, fədakarlıq, iradə rəmzi kimi xatırlanır. Məsləyi, idealları uğrunda edam olunan və son nəfəsində belə haqq bildiyi sözündən dönməyən şairin faciəli ölümü əfsanələşərək xalq yaddaşında, aşıqların sazında, sözündə yaşayaraq dövrümüzə gəlib çatıb.

Nəsimi Orta əsrlər Azərbaycan ədəbiyyatının inkişafında, ədəbi dilimizin zənginləşməsində müstəsna rol oynamış qüdrətli söz sənətkarıdır. Azərbaycan və dünya ədəbiyyatının böyük nümayəndələrindən olan mütəfəkkir şairin 650 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi, 2019-cu ilin "Nəsimi ili" elan olunması dövlətimizin rəhbərliyinin milli mədəniyyətə və incəsənətə qayğıkeş münasibətinin göstəricisidir. Son illərdə Nəsimi irsinin ölkəmizdə və dünyada təbliği istiqamətində böyük işlər görülür. 2017-ci ilin may ayında Parisdə, UNESCO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyinə həsr olunmuş tədbir keçirilib. 2018-ci ildə Heydər Əliyev Fondunun layihəsi üzrə ölkəmizdə ilk dəfə Nəsimi – poeziya, incəsənət və mənəviyyat festivalı təşkil olunub.

Mədəniyyət Nazirliyinin dəstəyi və təşkilatçılığı ilə "Nəsimi ili" çərçivəsində nazirliyin regional idarələrinin əhatə etdiyi bütün şəhər və rayonların tabe müəssisələrində silsilə tədbirlər keçirilir.





***

Gəncə Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində də bu əlamətdar hadisə ilə bağlı tədbirlər ilin əvvəlindən davam edir.

Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxana və filiallarında "Ey xəstə könül, dərdimə dərman tələb eylə" adlı qəzəl saatı, "Eşq və azadlıq şairi" mövzusunda şeir gecəsi, kitab sərgisi, "Azərbaycan şairlərinin yaradıcılığında Nəsimi obrazı" adlı oxucu konfransı, "Mən ədəbiyyat səmasında doğan günəşəm" adlı musiqili ədəbi-bədii gecə, "Dünya poeziyasının iftixarı" adlı tədbir və Xalq şairi Qabilin "Nəsimi" poemasının müzakirəsi təşkil olunub. Mərkəzi kitabxanada "Cahana sığmayan şair" adlı ədəbi-bədii kompozisiya təqdim edilib.

Gəncə şəhərində "Nəsimi ili"nə yaddaqalan töhfələrdən biri də Heydər Əliyev adına mərkəzi meydanda keçirilən möhtəşəm fleşmob olub. Şəhərin ali və orta ixtisas məktəbləri tələbələrinin – 2800-dən çox gəncin qatıldığı aksiyada dahi Azərbaycan şairi İmadəddin Nəsiminin portreti canlandırılıb. Nümayiş olunan canlı loqo gənc rəssam Mobil Qarayev tərəfindən hazırlanıb

***

Regional idarənin əhatə etdiyi Naftalan şəhər Nizami Gəncəvi adına Mərkəzi Kitabxana tərəfindən 1 saylı orta məktəbdə "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" mövzusunda ədəbi-bədii gecə keçirilib.

Şəhər Mədəniyyət Mərkəzində "Daimi yaşar şair" adlı dəyirmi masada Nəsiminin Azərbaycan ədəbiyyatının, ana dilimizin inkişafına verdiyi töhfələrdən söz açılıb. Çıxışlarda Nəsimi poeziyasının, müəllifin ideallarının həmişə aktuallığını qoruyub saxlayacağı vurğulanıb.

Naftalan şəhər Heydər Əliyev Mərkəzində gerçəkləşən "Nəsimi bu günümüzün şairidir" adlı dəyirmi masada ölməz söz ustadının yaradıcılığından ətraflı bəhs olunub.

***

Goranboy Dövlət Rəsm Qalereyasında "İmadəddin Nəsimi 650" adlı rəsm sərgisi keçirilib. Sərgidə rəssam Akif Hüseynovun Nəsimi poeziyasına həsr olunmuş "Nəsimini oxuyarkən" adlı rəsm əsəri və qrafika üslubunda çəkilmiş portreti, İncəsənət məktəbinin rəssamlıq sinfi şagirdlərinin rəsmləri nümayiş olunub.

Qalereyanın direktoru Çinarə Abdullazadə çıxış edərək Nəsiminin yaradıcılığı haqqında məlumat verib.

Goranboy rayon MKS-nin təşkilatçılığı ilə rayonun 1 nömrəli tam orta məktəbində "Ölümü ilə ölməzlik qazanan şair" adlı oxucu konfransı keçirilib.

Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Nəsiminin yaradıcılığı milli-mənəvi varlığımızdır" adlı tədbir təşkil olunub. Çıxışlardan sonra "Nəsimi" bədii filmindən fraqmentlər nümayiş etdirilib.





Düzqışlaq kənd Uşaq musiqi məktəbində Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbirdə də dahi şairin həyat və yaradıcılığı barədə məlumat verilib. Sonra məktəbin müəllim və şagirdlərinin iştirakı ilə konsert proqramı təqdim olunub.

***

Samux rayon MKS-də "Böyük Azərbaycan şairi İmadəddin Nəsimi" adlı tədbir keçirilib. Tədbirdə çıxış edənlər Nəsiminin Azərbaycan poeziyasına lirik-fəlsəfi çalar gətirdiyi vurğulanıb.

Heydər Əliyev Mərkəzində təşkil olunan kitab sərgisində Nəsiminin əsərlərinin müxtəlif illərdə çap edilən nümunələri və şairin zəngin yaradıcılığına dair tədqiqatları əhatə



edən monoqrafiya və kitablar, mətbu nəşrlər nümayiş olunub.

***

Kəlbəcər rayon MKS-nin Allıkənd kitabxana filialında "Nəsimi 650" adlı tədbirdə çıxış edənlər mütəfəkkir şairin yubileyinin dövlət səviyyəsində geniş qeyd olunmasını bütövlükdə Azərbaycan ədəbiyyatına diqqətin nümunəsi kimi səciyyələndiriblər.

***

Xocalı rayon MKS-nin Cəmilli kənd 1 saylı Kitabxana filialında Nəsiminin yubileyinə həsr olunmuş "Şair və cəsarətli insan" adlı bədii qiraət gecəsi keçirilib. Söz ustadının yaradıcılığı haqqında məlumat verildikdən sonra şairin qəzəlləri qiraət olunub.

Rayon Mərkəzi kitabxanasında əlamətdar yubileylə bağlı "Əbədiyaşar klassiklər" adlı kitab sərgisi təşkil olunub.



Rayon Mədəniyyət evində keçirilən dəyirmi masada çıxış edənlər vurğulayıblar ki, Nəsimi Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirib. Sonda şairin bir neçə qəzəli səsləndirilib.

***

Gəncə şəhəri "Nəsimi ili"ndə həmçinin Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının ilk tədbirinə ev sahibliyi edib. Azərbaycan xalqının zəngin mədəni irsinin təbliği, bölgələrin mədəni imkanlarının nümayişi, eləcə də regionlararası mədəni mübadiləni gücləndirmək məqsədi daşıyan festivalın açılış mərasimi martın 28-də Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında gerçəkləşib. Mərasimdə mədəniyyət nazirinin müavini Rafiq Bayramov, şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri, respublikamızın bölgələrindən gəlmiş qonaqlar iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Mədəniyyət Nazirliyinin 15 regional mədəniyyət idarəsi tərəfindən qurulmuş guşələrdə bölgələrin xalq sənətkarlıq nümunələri, dekorativ-tətbiqi sənət əsərləri, rəsmlər, suvenirlər və digər əl işləri ilə tanış olublar. Tədbirdə "Nəsimi ili" ilə əlaqədar kitab guşəsi təqdim edilib. Sonra regional mədəniyyət idarələrinin bədii özfəaliyyət kollektivləri, folklor və rəqs qrupları konsert proqramı ilə çıxış ediblər. Festival iştirakçılarının çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Sakinlər bölgələrimizdə ikinci dəfə belə bir festivalın keçirilməsinin əhəmiyyətini məmnunluqla qeyd ediblər.



Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 10-11.